TÜRKİYE DİYANET VAKFI
BAKÜ TÜRK LİSESİ

# 2024-2025-ci il

# QƏBUL İMTAHANI

| 8 | A | I |
|---|---|---|
| SİNİF | VARİANT | QRUP |

Ad, Soyad

İş nömrəsi

## AZƏRBAYCAN DİLİ

***1-5-ci suallar mətn əsasında cavablandırılacaq.***

Qədim zamanlarda bir hökmdar var idi. Bu hökmdarın ağıllı bir xəzinədarı var idi. Xəzinədarın artan nüfuzu saray sakinlərini narahat edir, xəzinədara qarşı paxıllıq hissi yaradırdı. Getdikcə artan həsəd və paxıllıq hissi saray sakinlərini bir tədbir tökməyə vadar edir. Onlar xəzinədarın üstünə şər atmaq və onu hökmdarın gözündən salmaq qərarına gəlirlər.

Saray adamları bir müddət xəzinədarı izləyir[1], hər addımına diqqət yetirirlər. Öyrənirlər ki, xəzinədarın evində elə bir otaq var ki, orada xəzinədardan başqa heç bir kəs olmur. Otaq hər zaman bağlı olaraq qalır. Otağın qıfılının açarını isə xəzinədar heç bir kəsə vermir[2].

"Otaqda xəzinədən oğurlanan qızıllar gizlədilib, - deyə saray adamları fikirləşdilər,- saray xəzinəsi onun əlindədir, hökmdar ona güvənir[3], ona görə də xəzinədən nə qədər oğurluq etdiyini gizlədə bilir". Beləliklə də, saray adamları hökmdarın yanına gedərək[4] xəzinədarın saray xəzinəsindən oğurluq etdiyini və oğurladıqlarını evindəki sirli otaqda saxladığını deyirlər. Hökmdar həqiqəti öyrənmək qərarına gəlir[5] və xəzinədarın evinə gedərək o sirli otağın açılmasını əmr edir.

Xəzinədar hökmdarın əmrini yerinə yetirir. Onu sirli otağa aparır və qapıları açır. Hökmdar otaqda üzərində bir xurcun və çoban yapıncısı olan bir masa görür. O, təəccüblə xəzinədara baxır. Xəzinədar hökmdara deyir: "Mən əvvəllər çoban olmuşam. Siz məni saraya qəbul etdiniz, oxutdurdunuz, böyük bir vəzifə verdiniz. Ancaq mən kim olduğumu unutmadım. Sizin mərhəmətiniz sayəsində indi cah-calal içində yaşayıram. **Mən hər gün bu otağa gələrək öz keçmişimi xatırlayır, dualar edirəm. Bura gəlməklə kim olduğumu özümə xatırladıram ki, var-dövlət mənim hafizəmi zəiflətməsin, heç nəyi unutdurmasın".**

Bu sözlərdən sonra hökmdar xəzinədarı qucaqlayır, sonra üzünə baxaraq: "Bu günə qədər sən qızıllarımın xəzinədarı idin, ancaq indi qəlbimin xəzinədarısan", – deyir.

**1.** Mətnin tərkib hissələrinin planı ilə bağlı ***uyğunsuzluğu*** müəyyən edin.

| | |
|---|---|
| **Giriş** | 1. Xəzinədarın oğurluqda günahlandırılması<br>2. Saraydakıların həsəd və paxıllıq hissi |
| **Əsas** | 3. Hər zaman bağlı qalan otaq<br>4. Sirli otağın açılması |
| **Nəticə** | 5. Hökmdarın xəzinədarın sözlərindən təsirlənməsi<br>6. Keçmişin xatırlanması |

A) 1, 6 B) 2, 5 C) 3, 4, 6 D) 2, 3 E) 1, 4, 5

**2.** Üzərində rəqəm yazılmış sözlərdən biri məcazi mənalıdır.

A) 1 B) 2 C) 3 D) 4 E) 5

**3.** Mətndəki hansı məlumat digərləri ilə müqayisədə daha əvvələ aiddir?

A) Xəzinədarın artan nüfuzunun saray sakinlərini narahat etməsi
B) Saray adamlarının xəzinədarı izləməsi
C) Saray xəzinəsindən oğurluq edilməsi haqda hökmdara məlumatın çatdırılması
D) Xəzinədara qarşı paxıllıq hissinin yaranması
E) Hökmdarın sirli otaqdakıları görməsi

**4.** Mətndə tünd rənglə verilmiş hissədə hansı sözün əvəzlənməsi məzmuna görə düzgün ***olmaz***?

A) var-dövlət – zənginlik
B) hafizəmi – yaddaşımı
C) dualar – müraciətlər
D) xatırlayır – yada salır
E) unutdurmasın – yaddan çıxartdırmasın

**5.** Uyğunluğu müəyyən edin.

*1.Pislik əvəzsiz qalmaz. → saray adamları*
*2. Haqq ləkə götürməz. → xəzinədar*
*3. Hirsli başda ağıl olmaz. → hökmdar*
*4. Keçmişini unudanın gələcəyi olmaz. → xəzinədar*
*5. Güc birlikdədir. → saray adamları*

A) 2,4 B) 3,4,5 C) 1,2,3 D) 1,4 E) 1,2,5

**6.** *"Elmin tərəqqisi alimlərin kəşfləri və ixtiraları ilə müəyyən olunur."* cümləsinin sintaktik təhlilindəki ***səhvi*** göstərin.

A) Mübtədası və xəbəri mürəkkəbdir.
B) Xəbəri sintaktik əlaqənin həm əsas, həm də asılı tərəfidir.
C) Müəyyən şəxsli cümlədir.
D) İkinci dərəcəli üzvlərdən yalnız biri işlənmişdir.
E) Nəqli cümlədir.

**7.** Hansı bənddə məsdər tərkibi feili sifət tərkibinin asılı tərəfidir?

A) Ancaq onu gözləməkdən tamamilə yorulandan sonra öz daxmasına çəkilərdi.
B) Qocanın şikayət ərizəsində yazdıqlarından hər şeyi başa düşmək olurdu.
C) Oğlundan gələn məktubları oxuduqca onu fərəh bürüyürdü.
D) Dağların döşündə bitən çiçəkləri dərmək ona ayrı bir rahatlıq gətirirdi.
E) Təhsil almaq istəyini bildirən Sənəm atasının narazılığı ilə qarşılaşacağını bilmirdi.

**8.** Cümlə üzvü olmur, ancaq yerinə görə bitmiş fikir ifadə edə bilir:

A) qeyri B) xeyir C) var
D) əlbəttə E) gərəkdir

Qəbul imtahanı -2025

**9.** Uyğunluğu müəyyən edin.
A) Bütün ara sözlər modal sözlərdir. – ***doğru***
B) Mübtəda sintaktik əlaqədə əsas tərəf olur. – ***yanlış***
C) *"Alimlərin fikirləri qızıl kimi dəyərlidir."* cümləsində təyin qoşmalı sözlə ifadə olunmuşdur. – ***yanlış***
D) Şəxssiz cümlələrin xəbəri III şəxsin təkində olur. – ***yanlış***
E) *"Biz etiraz edəndə bu reaksiyanı gözləmirdik."* – cümləsində zərflik feili birləşmə ilə ifadə olunub .– ***doğru***

**10.** Hər iki tərəfi sifətlə ifadə olunmuş ismi birləşməni müəyyənləşdirin.
A) çit parça B) dolğun cavab C) dünənki körpə
D) oxumuş cavan E) tez solan

**11.** *Bəzi nidalar məsələn ay ey hey çağırış bildirir.*
Cümlədə buraxılmış durğu işarələrini və sayını müəyyən edin.
A) 3 vergül , 1 qoşa nöqtə B) 4 vergül, 1 qoşa nöqtə
C) 2 vergül, 1 tire D) 3 vergül , 1 tire
E) 5 vergül, 1 qoşa nöqtə

**12.** ——— ═══ sxeminə uyğun cümlə hansı variantdadır?
A) Ona kömək etməyə bircə mən gəlmişdim.
B) Şagirdin bu mövzudakı dolğun cavabları müəllimi qane etdi.
C) Quldurun sözünün üstündə durmaması gözlənilən idi.
D) Bacısı Amerikada tanınmış bəstəkar idi.
E) Xalamın dişi bağırsağını kəsirdi.

**13.** Variantlardan birində həmcins üzvlər ***işlənməmişdir.***
A) Ölməz bu gözəl aləmə idrakla gələnlər,
Məna evinin sirrini vicdanla bilənlər.
*(S. Vurğun)*
B) Şərəflə ləyaqət ruhun bəzəyidir.
*(M. Servantes)*
C) İxtiraların praktik əhəmiyyəti dərk edilmir və onlar bir-birinin ardınca unudulur.
D) Göyçək Fatma və qardaşı meşədə azdılar.
E) Şeir də, musiqi də onun ruhunun qidası idi.

**14.** Hansı bənddə verilmiş sözü cümlənin həm mübtədası, həm də tamamlığı vəzifəsində işlətmək olar?
A) beyini B) qələmi C) sinfin D) oğlu E) anası

**15.** *"......, kimin qalib olduğunu bilirsiniz "*
Hansı bənddəki ara sözü seçsək, verilmiş nümunənin sonuna sual işarəsini əlavə edə bilərik?
A) şübhəsiz B) olmaya C) yəni
D) əfsus E) bəs

**16.** Mürəkkəb zərfliklər işlənmiş cümlələri seçin.
*1. Həqiqət üzə çıxar-çıxmaz şübhələr silinir.*
*2. Kamal uğur qazanmaq üçün daha səylə çalışırdı.*
*3. Şəhər üzük qaşı kimi mühasirəyə alınmışdı.*
*4. Özünə yeni dostlar taparkən köhnələri unutma.*
*5. Fateh xəstə olduğu üçün işə gələ bilməmişdi.*
A) 1,2,4 B) 1,3,4 C) 3,4,5 D) 1,5 E) 2,5

**17.** Hansı nümunədə əlavə cümlə üzvünə aid ***deyil***?
A) Səhər – günəşin ilk şəfəqləri görünəndə yola çıxdılar.
B) Biz, Vətən oğulları, bu torpağı göz bəbəyimiz kimi qorumalıyıq.
C) Ayxan Şuşaya – doğma yurduna qayıdandan sonra sevinci yerə - göyə sığmırdı.
D) Orada, yəni dağın ətəyində qoyunlar otlayırdı .
E) Bəzi şagirdləri – olimpiadada uğur qazananları medalla təltif etdilər.

**18.** Cümlə üzvü yerində işlənən hansı sözlər suala cavab ***vermir?***
*1. yenə 2. bəsdir 3. kim 4. gözəl*
A) 2,4 B) 3,4 C) 1,2 D) 1,3 E) 2,3

**19.** Müqayisə edib doğru fikirləri müəyyən edin.
*I Ölkəmizdə təbiətin füsunkarlığına heyran olursan.*
*II Biz kəndə çatanda axşam idi.*




*1. Xəbəri sadədir.*
*2. Ümumi şəxsli cümlədir.*
*3. Feili xəbərlidir.*
*4. Mürəkkəb cümlə üzvü işlənmişdir.*
*5. Müəyyən şəxsli cümlədir.*
*6. Uzlaşma əlaqəsi işlənməmişdir.*
A) 2,4,5 B) 1,5,6 C) 2,3,4 D) 1,3,5 E) 2,4,6

**20.** Hansı cümlələrin təyini eyni nitq hissəsi ilə ifadə olunmuşdur?
*1. Nazlı mis səhəngini doldurub bulaqdan aralandı .*
*2. Bunlar usta Abdullanın əl işləri idi.*
*3. Azərbaycanın bənzərsiz təbiəti səyyahların diqqət mərkəzində olub.*
*4. Maşın torpaq yolun aşağısından sola döndü.*
*5. Müdrik qoca İsgəndərə quşların dilini öyrətdi.*
A) 3,5 B) 1,2,4 C) 2,4,5 D) 1,3 E) 2,4

**21.** Hansı cümlənin sintaktik təhlil sxemini yalnız bir cür düşünmək olar?
A) Qardaşım, doğrudan, gəldi.
B) Ət bişir.
C) Kəndə doğru yol tapdı.
D) Mühəndis Ramizi çağırdı.
E) Evə sarı maşınla gedərkən tutuldu.

**22.** Ara söz işlənən cümlələrdən biri qeyri-müəyyən şəxsli cümlədir.
A) Əziyyət çəkənlər, şübhəsiz ki, əziyyətiniz hədər getməyəcək.
B) Yəqin ki, fəhlələr işin gedişatından narazı idilər.
C) Atalar demişkən, yeməyənin payını yeyərlər.
D) Ola bilsin ki, onların layihəsini qəbul etməyiblər.
E) Sözsüz ki, burada ətrafın təmizliyinə diqqət yetirilirdi.

**23.** Sual cümlələrindən hansı həm sual ədatı, həm də sual əvəzliyinin köməyi ilə düzəlib?
A) Görəsən, bizim onun üçün etdiyimiz yaxşıdırmı?
B) Rəisin bizə təklif etdiyi nədir?
C) Heç o gözəl uşaqlıq illərini unutmaq olarmı?
D) Bəs hansı tanışların bu məclisdə olacaq?
E) Ən gözəl məslək hansıdır?

**24.** Hansı bənddə xitab feili sifətlə ifadə olunub?
A) Gecə-gündüz həsrətin çəkdiyim oğul, gözüm yolda qalıb, tez gəl.
B) Üç ay qonaqdır bahar bizə,
Gəl boynunu bükmə, bənövşə.
C) Gecikənlər, siz də bu fikirlə razısınız?
D) Dediyim, şükür, düz çıxdı.
E) Körpə balam, rahat yat.

**25.** Mürəkkəb adların yazılışı ilə bağlı uyğunluğu müəyyən edin.

| Yazılışı ***doğrudur.*** | Yazılışı ***yanlışdır.*** |
|---|---|
| 1.”Elitar” gimnaziya | 4. Əməkdar Elm xadimi |
| 2. Seyid Şuşinski küçəsi | 5. Böyük Vətən Müharibəsi |
| 3. Ağdam Rayon Təhsil şöbəsi | 6. Səməd Vurğun adına Rus Dram Teatrı |

A) 2,4,5 B) 3,4,5 C) 1,2,6 D) 3,4,6 E) 1,3,5

Qəbul imtahanı -2025

**İNGİLİS DİLİ**

***Read the passage and answer questions 26-30.***

*Hasan bey Zerdabi was one of the first Azerbaijani teachers, writers, and journalists. He worked hard to educate people and help them learn more about science, farming, health, and life. He believed that if people were more educated, <u>they</u> could live better lives. Zerdabi also thought that people should learn in their own language — Azerbaijani — not in foreign languages. In 1875, he started the first newspaper in the Azerbaijani language. It was called “Əkinçi”. Just like a farmer who cultivates the land, Zerdabi wanted to “cultivate” or grow the minds of the people with knowledge and good ideas.*

*The newspaper was written in a simple and easy language so that everyone — especially farmers and villagers — could read and understand it. Zerdabi also wanted people to send their children to school, especially girls. He believed that education was the most important thing for a better future.*

*But not everyone liked what Zerdabi was doing. Some government leaders and religious people were against his ideas. They did not want people to change or become more educated. Because of this, the newspaper was closed in 1877, after only 56 issues. Even though “Əkinçi” did not last long, it was very important. It was the first Azerbaijani newspaper and helped people start thinking about their rights, language, and future.*

**26.** Choose the correct statement according to the passage.
A) ‘’Əkinçi’’ was focused on entertainment and historical stories.
B) Zerdabi discouraged girls from attending school, believing education was only for boys.
C) The newspaper was written in a simple language, so everybody could understand it easily.
D) The government and religious leaders fully supported Zerdabi.
E) Hasan bey Zerdabi was the first Azerbaijani teacher who taught religion.

**27.** The underlined pronoun *<u>they</u>* refers to .... .
A) people B) teachers C) writers
D) languages E) journalists

**28.** Which question ***has no*** answer in the passage?
A) How many issues of ‘’Ekinci’’ were published?
B) Why did Zerdabi publish the newspaper?
C) Who did Zerdabi especially want to educate through his newspaper?
D) How did some people react to Zerdabi’s ideas?
E) What was Zerdabi’s educational backround and where did he study?

**29.** What is the passage mainly about?
A) The history of the Azerbaijani language
B) Farming and science in the 1800s
C) Women's role in education
D) The father of Azerbaijani press
E) The Newspaper that lasted a century

**30.** Choose the best word to the given definition.
*'' to become larger or greater over a period of time, increase ''*
A) to educate B) to change C) to believe
D) to grow E) to think

**31.** Choose the correct sentences with Tense Forms.
*1. As soon as people invented plastic, it will begin replacing traditional materials.*
*2. After the forest fire started, rescuers have evacuated the villagers from the area.*
*3. When the cruise ship returned, the passengers shared their travel stories.*
*4. Farmers will struggle to grow crops if the drought continues.*
*5. The children were playing outside when the landslide started.*
A) 1, 3, 4 B) 2, 3, 5 C) 2, 5 D) 3, 4, 5 E) 1, 3

**32.** Choose the correct Modal Verbs.
*This concert is free. You ... buy a ticket.*
1. needn't 2. ought to 3. haven't to
4. shouldn't 5. must
A) 1, 4 B) 2, 5 C) 2, 3, 4 D) 3, 5 E) 1, 4, 5

**33.** Choose the correct Conjunctive Words.
*The translator ... helped us with the documents speaks five languages.*
1. who 2. which 3. whose 4. that 5. whom
A) 1, 5 B) 3, 4, 5 C) 1, 2, 4 D) 2, 3, 5 E) 1, 4

**34.** Choose the <u>*incorrect*</u> sentence with Pronouns.
A) Both telescopes were powerful and showed the stars clearly.
B) Every planet in our solar system orbits the Sun.
C) None students forgot the safety rules during the diving lesson.
D) There was no amusement park near the village.
E) Neither shark was dangerous, they were calm and peaceful.

**35.** Choose the correct variant.
*She ... the last ingredient to the soup yet.*
A) add B) has added C) won't add
D) didn't add E) hasn't added

**36.** Which pronoun can replace the underlined words?
*That delicious aroma is coming from <u>my mother's kitchen</u>.*
A) its B) her C) it D) it's E) me

**37.** Fill the gap with the correct words.
*We stopped at the top of the hill to admire Shusha's amazing ... .*
1. disease 2. beauty 3. scenery
4. beads 5. flavour
A) 1, 3 B) 2, 4 C) 1, 4, 5 D) 3, 4, 5 E) 2, 3

**38.** How many variants are correct with Paired Conjunctions?
*1. Both the students and the teacher is excited about upcoming field trip.*
*2. Not only the chef but also the waiters were proud of their excellent service.*
*3. You must either approve the plan nor suggest a better one.*
*4. The room was both accessible or suitable for the children with disabilities.*
*5. Neither the guest nor the receptionist didn't notice the missing bowl.*
A) 1 B) 3 C) 4 D) 2 E) 0

**39.** Match the halves.
*1. existing and happening over a large area or among many people*
*2. a small amount of food served before a meal*
*3. to move text or images on a computer screen or mobile device up, down*
a. scroll b. appetizer c. widespread
A) 1-a, 2-b, 3-c B) 1-c, 2-b, 3-a C) 1-c, 2-a, 3-b
D) 1-a, 2-c, 3-b E) 1-b, 2-a, 3-c

**40.** Choose the correct Tense Forms.
*I ... very busy since I ... back from holiday.*
A) was/have come B) will be/came C) was/came
D) have been/came E) have been/have come

**41.** Choose the correct Tag Question.
*You watched the movie last night, ... ...*
A) weren't you? B) don't you? C) didn't you?
D) did you? E) haven't you?

**42.** Choose the correct Degree of the Adjective.
*Today is ... than yesterday, so I decided to wear my thick winter coat and gloves.*
A) much cold B) a colder C) the coldest
D) cold E) colder

Qəbul imtahanı -2025

**43.** Choose the correct Adjective or Adverb.

1. She sings very ... in the school choir.
   a. beautiful b. beautifully
2. The children looked ... when they saw the cake.
   a. happy b. happily
3. He drives ..., especially in bad weather.
   a. careful b. carefully
4. This soup tastes ..., doesn't it?
   a. good b. well

A) 1-a; 2-a; 3-b; 4-b
B) 1-b; 2-b; 3-a; 4-a
C) 1-b; 2-a; 3-b; 4-a
D) 1-a; 2-b; 3-a; 4-b
E) 1-b; 2-b; 3-b; 4-a

**44.** Choose the correct variant.

*There are ... ... I can give you.*

A) a piece of advice
B) piece of advice
C) a lot of advice
D) a few pieces of advice
E) 3 advices

**45.** Choose the <u>incorrect</u> variant with the Quantifier.

A) She gave me a little help with the project.
B) There are few student in the classroom today.
C) We don't have any chairs left for the meeting.
D) He didn't have much information about the event.
E) We need some milk for the coffee.

**46.** Choose the correct Reflexive Pronoun.

*Omer, it wasn't your fault, don't blame ... for what happened.*

A) yourself
B) itself
C) ourselves
D) themselves
E) himself

**47.** Choose the correct Possessive Pronoun.

*The red car parked outside is ...; she bought it last year after saving for months.*

A) him B) her C) their D) our E) hers

**48.** Choose the correct Countable Nouns.

A) music, job, problem
B) snow, flour, wind
C) egg, vegetable, gold
D) ray, cookie, sandwich
E) bread, chess, thunder

**49.** Choose the correct Interrogative Sentence.

A) What time do usually have you breakfast on weekdays?
B) Who did go to the library with you last Saturday afternoon?
C) How many books have you read this month?
D) When have your family moved to this city?
E) Where have we to buy tickets for the concert?

Qəbul imtahanı -2025

**50.** Choose the correct forms of the verbs.

1. My mother made me ... up the room again when she heard the good news.
   a. clean b. cleaning c. to clean
2. I dream about ... in a place with the ocean nearby.
   a. live b. living c. to live
3. I decided ... to a new city for better opportunities.
   a. move b. moving c. to move

A) 1-c; 2-b; 3-a
B) 1-b; 2-c; 3-b
C) 1-a; 2-a; 3-b
D) 1-c; 2-a; 3-c
E) 1-a; 2-b; 3-c

## KİMYA

**51.** Verilmiş məhlulların elektrik keçiriciliyinin müqayisəsinin doğru göstərildiyi variantı müəyyən edin.




A) II > I > III
B) II > III > I
C) I > II > III
D) I > III > II
E) III > I > II

**52.** Hansı halda duzların hidrolizinə uyğun mühit doğru ***göstərilməmişdir?***




**53.** Hansı maddələrin tərkibində olan rabitələr *yalnız polyar-kovalent– yalnız ion– həm ion, həm də polyar kovalent* ardıcıllığı kimidir?

A) $HCl$– $MgF_2$– $Li_2SO_4$
B) $NH_4Cl$– $BaCl_2$– $H_3PO_4$
C) $H_2SO_4$– $HNO_3$– $NH_4NO_3$
D) $FeCl_3$– HF– $KH_2PO_4$
E) $CO_2$– $CaCO_3$– $CH_4$

**54.** 60°C -də sürəti 0,2 mol/l·san olan reaksiyanın 100°C-də sürətini (mol/l·san) müəyyən edin. Reaksiyanın temperatur əmsalı 2-dir.

A) 2,4   B) 1,6   C) 0,8   D) 3,2   E) 0,4

**55.** 1 mol $Na_nYO_4$ duzunun suda məhlulda dissosiasiyası zamanı əmələ gələn ionların mol sayının zamandan (τ) asılılıq qrafiki verilmişdir. Qrafikə əsasən hansı ifadələr ***doğru deyil***?




*1. Duzun formulu $Na_3YO_4$ kimidir*
*2. Duzun dissosiasiya dərəcəsi 50 %-dir*
*3. Y-in oksidləşmə dərəcəsi +6 -dır*

A) yalnız 1   B) yalnız 2   C) yalnız 3
D) 1, 2   E) 1, 3

**56.** Hansı reaksiya nəticəsində $N^{-3} \rightarrow N^{+2}$ oksidləşmə prosesi baş verir?

A) $AgNO_3 \xrightarrow{t} Ag + NO_2 + O_2$
B) $NH_3 + O_2 \xrightarrow{t} N_2 + H_2O$
C) $NH_4NO_3 \longrightarrow N_2O + H_2O$
D) $NH_3 + O_2 \xrightarrow{t.kat.} NO + H_2O$
E) $NH_3 + HCl \longrightarrow NH_4Cl$

**57.**

| Element | Dövrü sistemdə mövqeyi | | Neytron sayı |
|---|---|---|---|
| | Dövrü | Qrupu | |
| $^{64}_{29}A$ | X | Y | Z |




| | A) | B) | C) | D) | E) |
|---|---|---|---|---|---|
| X => | 4 | 3 | 4 | 3 | 4 |
| Y => | I A | I B | VIIIB | VIIIB | I B |
| Z => | 35 | 36 | 35 | 36 | 35 |

**58.** Verilmiş oksidləşmə proseslərindən hansı yalnız duzun ərintisinin elektrolizi zamanı anodda müşahidə olunur?

1. $2Cl^- - 2e^- \rightarrow Cl_2$   2. $S^{2-} - 2e^- \rightarrow S$
3. $2F^- - 2e^- \rightarrow F_2$

A) yalnız 1   B) yalnız 3   C) yalnız 2   D) 1, 3   E) 2, 3

**59.** $CH_{4(q)} + H_2O_{(buxar)} \leftrightarrow CO_{(q)} + 3H_{2(q)} - Q$ Tarazlıqda olan reaksiya üçün hansılar doğrudur?

*I. $\upsilon_{reak.(düz)} = \upsilon_{reak.(əks)}$*
*II. Sistemdən $H_2$-ni çıxartdıqda tarazlıq sağ tərəfə yönəlir.*
*III. Temperaturun artırılması tarazlığı başlanğıc maddələrə tərəf yönəldir*
*IV. Təzyiqin dəyişməsi tarazlığın yerdəyişməsinə təsir etmir.*

A) yalnız I   B) I, II   C) II, III   D) III, IV   E) I, IV

**60.** Eyler-Venn diaqramına uyğun olanları müəyyən edin.

$CH_3-CH=CH-CH_3$   $CH_2=C=CH-CH_3$







| | I | II | III |
|---|---|---|---|
| A) | a, d | b | c |
| B) | c | a, d | b |
| C) | b | d | a, c |
| D) | d | b | a,c |
| E) | a | c, d | b |

**61.**

| ***Elementlər*** | ***Əmələ gətirdikləri birləşmənin formulu*** | ***Birləşmənin bir molekulunda olan elektronların ümumi sayı*** |
|---|---|---|
| Metal-X | $X_3Y_2$ | 74 |
| Qeyri-metal- Y | | |

$X^{2+}$ ionunun elektronlarının sayının $Y^{3-}$ ionunun elektronlarının sayından 8 vahid çox olduğunu bilərək, X və Y atomlarının protonlarının sayını müəyyən edin.

| | X | Y |
|---|---|---|
| A) | 20 | 7 |
| B) | 12 | 7 |
| C) | 12 | 15 |
| D) | 20 | 15 |
| E) | 9 | 7 |

Qəbul imtahanı -2025

**62.** Hansı reaksiya doğru ***deyil?***

A) $C + HNO_{3(qatı)} \xrightarrow{t} CO_2 + NO_2 + H_2O$

B) $NH_3 + H_3PO_4 \longrightarrow NH_4H_2PO_4$

C) $Mg + H_2SO_{4(duru)} \longrightarrow MgSO_4 + H_2$

D) $Pb(NO_3)_2 + HCl \longrightarrow PbCl_2 + HNO_3$

E) $NO_2 + NaOH \longrightarrow NaNO_3 + H_2O$

**63.** Qrafikə əsasən $2AB_{(qaz)} \rightleftarrows A_{2(qaz)} + B_{2(qaz)}$ reaksiyasının tarazlıq sabitini hesablayın.




A) 1 B) 2 C) 4 D) 0,5 E) 0,25

**64.** Hansı oksidlər adi şəraitdə qaz halındadır?

A) $SO_2$, $CO_2$ B) $N_2O$, $Na_2O$ C) $P_2O_5$, $N_2O_5$

D) $CuO$, $CO$ E) $SO_2$, $CrO_3$

**65.** $K_2CO_3 + 2HCl \rightarrow 2KCl + X + H_2O$

$NH_3 + HCl \rightarrow Y$

$CO_2 + NaOH \rightarrow Z$

$CuO + C \xrightarrow{t} Cu + T$

Reaksiyalardan alınmış X, Y, Z, T birləşmələrindən hansının tərkibində donor-akseptor mexanizmi ilə yaranan kovalent rabitə var?

A) X, Z B) Y, Z C) Y, T D) X, T E) Z, T

**66.** Doğru ***olmayanı*** müəyyən edin.




| | |
|---|---|
| A) sink-hidroksonitrat | $Zn(OH)NO_3$ |
| B) kalium-hidrokarbonat | $KHCO_3$ |
| C) alüminium-hidroksobromid | $Al(OH)_2Br$ |
| D) manqan(VII)oksid | $Mn_2O_7$ |
| E) azot-monooksid | $NO$ |

**67.** X, Y, Z-i müəyyən edin.




| | X | Y | Z |
|---|---|---|---|
| A) | 10 | 1 | 20 |
| B) | 1 | 8 | 20 |
| C) | 10 | 8 | 80 |
| D) | 1 | 1 | 80 |
| E) | 10 | 1 | 10 |

*Qabul imtahanı -2025*

**68.** Verilmiş maddəyə əsasən klasteri tamamlayan fikirləri müəyyən edin.




*1. Kalsium-hidroortofosfat adlanır*

*2. Suda həll olur*

*3. Kalsium hidroksidlə reaksiyaya daxil* ***olmur***

*4. Mərhələli dissosiasiya edir*

A) 1, 2 B) 2, 3 C) 1, 3 D) 2, 4 E) 3, 4

**69.** Tərkibində 80 qram $CuSO_4$ duzu olan məhlula kütləsi 50 qram olan dəmir lövhə daxil edilmişdir. Reaksiya başa çatdıqdan sonra lövhənin kütləsi neçə qram olar? $M_r(CuSO_4) = 160$; $A_r(Fe)=56$; $A_r(Cu)= 64$

A) 46 B) 52 C) 54 D) 58 E) 50

**70.** Müəyyən temperaturda parçalanan bərk maddənin kütləsinin (m) zamandan (τ) asılılıq qrafiki verilmişdir. Uyğun duzu müəyyən edin.




A) $CaCO_3$ B) $NH_4NO_3$ C) $MgCO_3$
D) $Cu(NO_3)_2$ E) $NaNO_3$

**71.** Dövrü cədvəldə yerləri göstərilən elementlər üçün hansı ifadələr doğrudur?

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | | | | | | |
| X | | | | | | Z | |
| | Y | | | | | | T |

*1. X elementinin ionlaşma enerjiləri $E_1 < E_2 < E_3 << E_4$ ardıcıllığı ilə dəyişir*
*2. r (Z) < r (X) (r-atomun radiusudur)*
*3. Z birləşmə əmələ gətirərkən yalnız -1 oksidləşmə dərəcəsi göstərir*
*4. T-nin reduksiyaedicilik qabiliyyəti ən yüksəkdir*

A) 1, 3 B) 2, 4 C) 3, 4 D) 1, 4 E) 2, 3

**72.** Gümüş (I) nitratın suda məhlulunun elektrolizi prosesindən alınan məhsulların kütləsinin (m) zamandan (τ) asılılıq qrafikinə əsasən ***a***-nı müəyyən edin.
$A_r(H)=1$; $A_r(N)= 14$; $A_r(O)= 16$; $A_r(Ag)= 108$




*Qəbul imtahanı -2025*

**73.** Məhlulda olan hansı kationlar $OH^-$ ionu ilə təyin olunur?
1. $K^+$ 2. $NH_4^+$ 3. $Fe^{3+}$ 4. $Ca^{2+}$ 5. $Cu^{2+}$ 6. $Na^+$

**74.** Doğru olanı müəyyən edin.
1. $BCl_3$ molekulunda rabitə bucağı 120° olur.
2. HCl molekulunda rabitə yaradan elektron buludlarının örtülməsi  şəklindədir
3. HF→HCl→ HBr → HI istiqamətində molekulun polyarlığı artır
4. Almaz və qrafitin kristal qəfəsinin tipi eyni, kristal qəfəsinin quruluşu isə fərqlidir
5. $NH_3$ molekulunda mərkəzi atom ***sp³*** hibrid vəziyyətindədir

**75.** Sxemə əsasən uyğunluğu müəyyən edin.




1. X a. $AgNO_3$
2. Y b. KCl
3. Z c. KOH
d. $NaNO_3$
e. $Cu(OH)_2$

## FİZİKA

**76.** Termometrdəki civə sütunu niyə qalxır?
A) civənin kütləsi artır
B) civənin temperaturu artdıqca həcmi artır
C) termometrin içi boşalır
D) civənin xüsusi istilik tutumu artır
E) şüşə borunun radiusu kiçilir

**77.** Ən aşağı mümkün temperatur, yəni mütləq sıfır (0 K) Farenheyt şkalasında təxminən neçə dərəcədir?
A) -459 ᵒF B) -273 ᵒF C) 0ᵒF
D) 32 ᵒF E) -100 ᵒF

**78.** Eyni xassəni göstərən uyğun anlayışları seçin.







**79.** K açarı qapalı olduqda ampermetrin göstərişi 3,6 A-dir. K açarını açdıqda ampermetrin göstərişi nə qədər olacaq?




A) 2 A B) 1,2 A C) 3 A D) 4,2 A E) 2,5 A

**80.** Müqaviməti *R*, radiusu *r* olan silindrşəkilli metal naqilin uzunluğu hansı ifadə ilə təyin edilir (ρ-xüsusi müqavimətdir)?
A) $\frac{\pi^2 Rr}{4\rho}$ B) $\frac{R\pi r^2}{\rho}$ C) $\frac{R\pi r^2}{4\rho}$
D) $\frac{\rho}{\pi R r^2}$ E) $\frac{4\rho}{\pi R r^2}$

**81.** Hansı cihazlardan istifadə edərək naqilin müqavimətini müəyyən etmək olar?
*1. Ampermetr* *2. Saniyəölçən* *3. Voltmetr*
*4. Elektroskop* *5. Burulma tərəzəsi*
A) 1 və 2 B) 2 və 3 C) 4 və 5
D) 3 və 5 E) 1 və 3

**82.** Misdən hazırlanmış və kütləsi 0,5 kq olan qazan 80⁰C soyuduqda daxili enerjisi neçə kC azalar (misin xüsusi istilik tutumu $c = 390\frac{C}{kq \cdot K}$)?
A) 15,6 kC B) 11 kC C) 7,5 kC
D) 12,6 kC E) 20 kC

**83.** Kütləsi $m_1$ =m və $m_2$ = 5m olan iki mis kürəyə eyni miqdarda istilik miqdarı verilir. Böyük kürənin temperaturu 8 ᵒC yüksəlmişsə , kiçik kürənin temperaturu nə qədər yüksələr?
A) 8 ᵒC B) 40 ᵒC C) 1,6 ᵒC D) 64 ᵒC E) 2 ᵒC

**84.** Eyler-Venn diaqramına əsasən uyğun bəndləri müəyyən edin (buxarın həcmi dəyişmir)




*1. Öz mayesi ilə dinamik tarazlıqda olan buxardır*
*2. Öz mayesi ilə dinamik tarazlıqda olmayan buxardır*
*3. Qızdırıldıqda buxarın sıxlığı artır*
*4. Qızdırıldıqda buxarın sıxlığı dəyişmir*
*5. Qızdırıldıqda molekulların orta kinetik enerjisi artar*

| | I | II | III |
|---|---|---|---|
| A) | 1,4 | 5 | 2,3 |
| B) | 1 | 4, 2 | 5,3 |
| C) | 2,3 | 4,1 | 5 |
| D) | 1,3 | 5 | 2,4 |
| E) | 3 | 2,4 | 1,5 |

**85.** Şəkildə üç elektrik çaynikindəki suyun həcmi və temperaturlarının qiymətləri verilmişdir. Çaynikdəki su molekullarının orta kinetik enerjiləri arasında hansı münasibət doğrudur?




A) $E_1 < E_2 < E_3$ B) $E_1 < E_2 = E_3$ C) $E_1 = E_2 < E_3$
D) $E_1 = E_2 = E_3$ E) $E_1 > E_2 > E_3$

*Qəbul imtahanı -2025*

**86.** Qrafikdə eyni istilik miqdarı alan iki cismin temperatur-zaman qrafiki təsvir edilmişdir. Cisimlərin xüsusi istilik tutumları arasındakı münasibət $c_1=2c_2$ olarsa $m_1/m_2$ nisbətini müəyyən edin.




A) 2 B) 0,8 C) 2,5 D) 0,4 E) 5

**87.** Hansı halda cismin temperaturu artar?
A) cisim udduğu qədər enerji süalandırır
B) cisim udduğundan 2 dəfə çox enerji şüalandırır
C) cisim udduğundan 1,5 dəfə çox enerji şüalandırır
D) cisim udduğundan daha az enerji şüalandırır
E) cisim udduğundan 5 dəfə çox enerji şüalandırır

**88.** Müqavimətləri $R_1$ və $R_2$ olan naqillərin gücünün onlardakı gərginlikdən asılılıq qrafikləri verilmişdir. Bu naqilləri paralel birləşdirsək, ümumi müqavimət nə qədər olar?
A) 7,2 Om
B) 5,4 Om
C) 4,5 Om
D) 1,8 Om
E) 9 Om




**89.** Eyler-Venn diaqramında uyğun bəndləri qeyd edin.




*1. Skalyar kəmiyyətdir*
*2. Naqilin uzunluğundan asılıdır*
*3. Naqilin növündən asılıdır*
*4. Naqilin en kəsiyinin sahəsindən asılı deyil*
*5. Naqilin diametrini 2 dəfə artırsaq 4 dəfə azalar*
A) I-1,2 II-3,4 III-5 B) I-2 II-1,3,5 III-4
C) I-2,5 II-1,3 III-4 D) I-2,4 II-3 III-1,5
E) I-1 II-2,3,4 III-5

Qəbul imtahanı -2025

**90.** 100 °C dəki 200 q su buxarı 50 °C temperaturlu suya çevrilərkən nə qədər istilik miqdarı ayrılar ($c_{su}$=4200 C/kq , L=2300 kC/kq)?
A) 230 kC B) 250 kC C) 502 kC
D) 450 kC E) 500 kC

**91.** Cərəyanın güc sərfinin ən az olması üçün gərginliyi 12 V olan sabit cərəyan mənbəyini hansı iki nöqtə arasına qoşmaq lazımdır?




A) 1 və 2 B) 2 və 3 C) 3 və 4
D) 1 və 4 E) 2 və 4

**92.** Aşağıdakı cümlələri açar sözlərdən istifadə edərək tamamlayın. Həmin sözlərə uyğun şəkilçilər artırmağı unutmayın. Açar sözlər:
*1- qarşılıqlı təsir, 2-Kulon qanunu, 3- nöqtəvi yük*
*4 –burulma tərəzisi , 5- Kulon qüvvəsi*

Sükunətdə olan iki ________ vakuumda______qüvvəsi yüklərin modulları hasili ilə düz, aralarındakı məsafənin kvadratı ilə tərs mütənasibdir. Bu qarşılıqlı təsir qüvvəsi ______, qanunu isə ______ adlanır. Kulon qüvvəsi ______ vasitəsilə təyin edilmişdir.

A) 1,2,3,4,5 B) 3,1,2,4,5 C) 2,5,1,4,3
D) 2,5,3,4,1 E) 3,1,5,2,4

**93.** Proton və elektronun hər ikisinə aid olan bəndləri seçin
*1. Elektrik yükü müsbətdir*
*2. Elektrik yükü sıfra bərabərdir*
*3. Yükü ədədi qiymətcə $1{,}6\cdot10^{-19}$ Kl-a bərabərdir*
*4. Nüvəni təşkil edən zərrəciklərdəndir*
*5. Atom əlaqəli sistemini təşkil edən zərrəciklərdəndir*
A) 1 və 2 B) 2 və 3 C) 3 və 5
D) 1 və 4 E) 3 və 4

**94.** Yükü -q olan elektroskopun kürəsinə +2q yüklü bir çubuq toxundurularsa elektroskopun kürəsində və yarpaqlarındakı elektrik yüklərinin işarəsi nə olur?

| | *Kürə* | *Yarpaqlar* |
|---|---|---|
| A) | + | - |
| B) | + | + |
| C) | 0 | - |
| D) | - | + |
| E) | - | - |

**95.** Şeh nöqtəsi və havanın temperaturuna görə hansı fiziki kəmiyyəti təyin etmək olar?
A) nisbi rütubət
B) potensial enerji
C) qaynama temperaturunu
D) daxili enerjini
E) ərimə temperaturunu

**96.** Daş kömürün yanma istiliyinin 66% -i buzun ərimısinə sərf olunarsa, xüsusi yanma istiliyi $3\cdot10^7\frac{C}{kq}$ olan nə qədər daş kömür yandırmaq lazımdır ki, 0 °C -də götürülmüş 30 kq buzu tamamilə əritmək mümkün olsun ($\lambda_{buz}=3{,}3\cdot10^5\frac{C}{kq}$)?
A) 0,1 kq B) 0,2 kq C) 0,3 kq D) 0,4 kq E) 0,5 kq

**97.** Kütləsi 50 q olan su qaynama temperaturunda tamamilə buxara çevriləndə daxili enerjisi neçə kilocoul artar (L=2,3 MC/kq)?




**98.** Daxili yanma mühərrikində yanacaq yandıqda 10 MC enerji ayrılır. Mühərrikin gördüyü faydalı iş ətraf mühitə verilən enerjinin 150% dirsə, daxili yanma mühərrikinin FİƏ neçə faizdir ?

**99.** Hansı ifadələr doğrudur?
*1. İstilik mühərrikləri üç hissədən ibarətdir: qızdırıcı, işci cisim və soyuducu*
*2. Daxiliyanma mühərriklərinin bir tam işi üç taktda baş verir: sorma, işgörmə və xaric etmə*
*3. İstilik mühərriklərində yanacağın daxili enerjisinin hamısını mexaniki enerjiyə çevirmək mümkündür.*
*4. İstilik mühərriklərində yanacağın daxili enerjisinin hamısını mexaniki enerjiyə çevirmək mümkün deyil.*
*5. Buxar turbinində qızdırılan suyun daxili enerjisi su buxarının kinetik enerjisinə çevrilir.*

**100.** Qrafikdə 40 °C temperaturlu suyun 130 °C temperaturlu buxara çevrilmə prosesi verilmişdir. 1, 2 və 3 nöqtələri ilə ifadələr arasındakı uyğunluğu müəyyən edin.




a. maye qaynamağa başlayır
b. buxarın qızması sona çatır
c. buxarın qızması başlayır
d. maye tamamilə buxarlanır
e. mayenin qızması başlayır

*Qəbul imtahanı -2025*

**RİYAZİYYAT**

**101.** Tənliyi həll edin: $2x^{-1} + 5(x-1)^{-1} = 6$

A) $2; \frac{1}{2}$
B) $2; \frac{1}{6}$
C) 5
D) 4
E) $\frac{3}{5}; \frac{1}{3}$

**102.** $\frac{1}{a} - \frac{1}{b} = \frac{1}{4}$ olduqda, $\frac{ab}{a-b}$ ifadəsinin qiymətini tapın.

A) 8
B) 1
C) $-4$
D) 4
E) $-1$

**103.** $ADC$ üçbucağında $AD \perp DC$; $BE \perp AC$; $AD = 8\ sm$, $BE = 6\ sm$, $BC = 12\ sm$ olarsa, $AC$-nin uzunluğu neçə santimetrdir?




A) 16 *sm*
B) 18 *sm*
C) 20 *sm*
D) 24 *sm*
E) 28 *sm*

**104.** İti bucağı $55^0$ olan $ABCD$ paraleloqramında $DE = BC$ olarsa, $ADE$ bucağını tapın.




A) $40^0$
B) $50^0$
C) $70^0$
D) $80^0$
E) $100^0$

**105.** Bərabəryanlı üçbucağın oturacağına bitişik bucağı $31^0$-dən böyük, $33^0$-dən kiçikdir. Üçbucağın təpə bucağının ala biləcəyi ən böyük tam qiyməti tapın.

A) $149^0$
B) $147^0$
C) $118^0$
D) $64^0$
E) $117^0$

**106.** $x = \sqrt{1 + \sqrt{16 - \sqrt{49}}}$

$y = \sqrt{12 + \sqrt{19 - \sqrt{9}}}$

olarsa, $x + y$ cəmini hesablayın.

A) 6
B) 13
C) 20
D) 16
E) 2

*Qəbul imtahanı -2025*

**107.** $(\sqrt{3}-\sqrt{2})^{-2}-(5+2\sqrt{6})^{-1}$ ifadəsinin qiymətini hesablayın.

A) 0
B) $4\sqrt{6}$
C) $-2\sqrt{6}$
D) 10
E) 5

**108.** Sahəsi 24, kor bucağı $150^0$ olan $ABCD$ paraleloqramında $AD=x$; $AB=x+2$ olarsa, paraleloqramın perimetrini tapın.




A) 6
B) 28
C) 14
D) 8
E) 32

**109.** Həmişə doğru olan bərabərlikləri göstərin:

1. $\sqrt{a^8}=a^4$
2. $\sqrt{a^6}=a^3$
3. $\sqrt{(2-\sqrt{5})^2}=\sqrt{5}-2$
4. $\sqrt{a^{16}}=a^4$
5. $\sqrt{(3-\sqrt{2})^2}=3-\sqrt{2}$

A) 1;3;5
B) 1;2;5
C) 1;2;3
D) 2;4;5
E) 2;3;4

**110.** $\frac{6}{x^2-4}=\frac{A}{x-2}+\frac{B}{x+2}$ olarsa, $A\cdot B$ hasilini tapın.

A) $-\frac{2}{9}$
B) $-\frac{3}{4}$
C) $-\frac{5}{9}$
D) $\frac{9}{4}$
E) $-\frac{9}{4}$

**111.** Sahəsi 60 $sm^2$ olan $ABCD$ trapesiyasında $AD=HB=BC$; $DH\perp AB$; $DH=6\ sm$ olarsa, $DC$-nin uzunluğunu tapın.




A) 3 $sm$
B) 4 $sm$
C) 6 $sm$
D) 2 $sm$
E) 5 $sm$

**112.** $x^2-kx-12=0$ tənliyinin kökləri $x_1$ və $x_2$ -dir. $x_1\cdot x_2^2=-36$ olarsa, $k\cdot 2\sqrt{6}$ ədədinin tam hissəsini təyin edin.

A) $-5$
B) $-2$
C) 2
D) $-4$
E) 6

Qabul imtahanı -2025

**113.** $ABCD$ trapesiyasında $AC$ və $BD$ diaqonalları $E$ nöqtəsində kəsişir. Böyük oturacağın uzunluğu 18 $sm$-dir. $E$ nöqtəsindən kiçik oturacağa qədər məsafə 2 $sm$, böyük oturacağa qədər məsafə isə kiçik oturacağa bərabər olarsa, kiçik oturacağın uzunluğunu tapın.




A) 4 $sm$
B) 12 $sm$
C) 7 $sm$
D) 8 $sm$
E) 6 $sm$

**114.** $4{,}5 \cdot 10^{-4} + 0{,}55 \cdot 10^{-3}$ ədədinin tərtibi $a$, qiymətli hissəsi $b$ olarsa, $\sqrt{b-a}$ ifadəsini hesablayın.
A) $\sqrt{6}$
B) 2
C) $\sqrt{7}$
D) 1
E) $\sqrt{5}$

**115.** Sadələşdirin: $\left(\frac{a+\sqrt{x}}{a-\sqrt{x}} + \frac{a-\sqrt{x}}{a+\sqrt{x}}\right) \cdot \frac{a-\sqrt{x}}{a^2+x}$

A) $\frac{1}{a+\sqrt{x}}$

B) $\frac{2}{a+\sqrt{x}}$

C) $\frac{a-\sqrt{x}}{a+\sqrt{x}}$

D) $\frac{a+\sqrt{x}}{2}$

E) $a-\sqrt{x}$

**116.** $\frac{x^3+2x^2-16x-32}{(x-1)^3+(1-x)^3+(x-1)^2-9}$ kəsrini ixtisar edin.
A) $x-2$
B) $x+4$
C) $x-3$
D) 1
E) $2-x$

**117.** $ABCD$ rombunda $B$ kor bucaq təpəsindən $AD$ tərəfinə uzunluğu 6 $sm$ olan $BM$ hündürlüyü çəkilmişdir. $AM:MD = 4:1$ nisbətində olarsa, rombun sahəsini tapın.
A) 30 $sm^2$
B) 50 $sm^2$
C) 40 $sm^2$
D) 60 $sm^2$
E) 20 $sm^2$

*Qəbul imtahanı -2025*

**118.** Qatar 600 $km$ məsafənin $\frac{1}{4}$ hissəsini getdikdən sonra 1 $saat$ 30 $dəqiqə$ dayandı. Sonuncu stansiyaya vaxtında çatmaq üçün sürəti 15 $km/saat$ artırdı. Qatar yolda neçə saat olmuşdur?
A) 10 $saat$
B) 2 $saat$
C) 6 $saat$
D) 40 $saat$
E) 15 $saat$

**119.** $ABC$ üçbucağında $BE$ və $AM$ medianları $G$ nöqtəsində kəsişirlər. $DE \parallel BC$; $AK \perp DE$; $BG = 12\ sm$; $GM = 8\ sm$ olduğuna görə $AE$- nin uzunluğunu tapın.




A) $3\sqrt{17}\ sm$
B) $2\sqrt{41}\ sm$
C) $4\sqrt{19}\ sm$
D) $\sqrt{103}\ sm$
E) $\sqrt{152}\ sm$

**120.** $AF$ və CE tənbölən, $\angle BCD = 90^0$, $AB = 11\ sm$, $EF = 2\ sm$, $BC = 6\ sm$, $CD = 8\ sm$ olarsa, $AD$- nin uzunluğunu tapın.

A) $4{,}5sm$
B) $6{,}5\ sm$
C) $9{,}5\ sm$
D) $5\ sm$
E) $8\ sm$




**121.** Şəkildə verilənlərə görə, $ABC$ düzbucaqlı üçbucağında $\frac{\sin\alpha+\cos\alpha}{\sin\alpha\cdot\cos\alpha} \cdot \frac{1}{\sqrt{41}}$ ifadəsini hesablayın.




A) $\frac{17}{20}$

B) $\frac{33}{19}$

C) $\frac{37}{20}$

D) $\frac{11}{20}$

E) $\frac{9}{20}$

**122.** Təkliflərdə neçəsi həmişə doğrudur?
*1. Paraleloqramın 2 simmetriya oxu var*
*2. Düzbucaqlının diaqonalları bərabərdir*
*3. Rombun diaqonalları tənböləndir*
*4. Paraleloqramın diaqonalları tənböləndir*
*5. Dördbucaqlı kvadratdır*
*6. Romb paraleloqramdır*

**123.** $a^2 - 2a - 6 = 0$ olduğunu bilərək, $\frac{a^3+8}{2a+4}$ ifadəsinin qiymətini tapın.

**124.** $2x^2-(m-4)x+2m-22=0$ tənliyinin kökləri $x_1$ və $x_2$ -dir. $x_1=5$ olduğuna görə $\sqrt{x_1^2-9x_2^2}$ ifadəsinin qiymətini tapın.

**125.** Kvadrat tənliklər üçün uyğunluğu müəyyən edin:
$(m=R)$
1. $x^2+mx+m-1=0$
2. $x^2+mx-1=0$
3. $x^2+mx+m=0$

a) $m=2$ olduqda iki bərabər həqiqi kökü var
b) $m=2$ olduqda iki müxtəlif həqiqi kökü var
c) $m=2$ olduqda həqiqi kökü yoxdur
d) $m=0$ olduqda iki bərabər həqiqi kökü var
e) $m=4$ olduqda kökləri irrasionaldır

Qəbul imtahanı -2025

# TDV Bakı Türk Liseyinin 2001-2024-cü illər üzrə qəbul uğurları

- **19** nəfər — **700 bal**
- **38** nəfər — **Ölkə birincisi**
- **2196** nəfər — **Məzun sayı**
- **947** nəfər — **600 bal**
- **108** nəfər — **Prezident təqaüdçüsü**
- **161** nəfər — **Qızıl medal**

# TDV BTL 2024-cü il üzrə ümumi qəbul göstəriciləri

- **4** nəfər — Blok və buraxılış imtahanı Respublika birincisi
- **3** nəfər — TR YÖS/1, TR YÖS/2 dünya birincisi
- **35** nəfər — 600 bal
- **106** nəfər — 2024-cü il Xarici ölkə Uni. qəbul
- Rəsmi Beynəlxalq Olimpiadalar — 2 qızıl, 3 gümüş, 6 bürünc
- **19** nəfər — ABŞ, Çin, Almaniya, Litva, Finlandiya, Belçika, Çexiya, Cənubi Koreya Uni.-ləri
- RFO 2024 — 12 qızıl, 16 gümüş, 9 bürünc
- **87** nəfər — Türkiyə Universitetləri
- RFM 2024 — 7 qızıl, 11 gümüş, 12 bürünc
- **4** nəfər — Prezident təqaüdçüsü
- Ölkədaxili və Beynəlxalq Olimp. və yarışlar — 39 qızıl, 50 gümüş, 47 bürünc
- **31** nəfər — YTB bursu ilə Türkiyə Uni. qəbul olunan

TÜRKİYE DİYANET VAKFI
BAKÜ TÜRK LİSESİ